# Müəllimin şəxsiyyət keyfiyyətləri ilə tükənmə sindromunun qarşılıqlı əlaqəsinin təhlili (tədqiqatın nəticələri)

**Aygül Bəşirova**
*Xəzər Universiteti*
**E-mail:** aygulbashirova@yahoo.fr

**Rəyçilər:** psixol.ü.f.d., dos.U.M. Qəzvini,
psixol.ü.f.d., dos.M.C. İsmayılova

**Açar sözlər:** emosional tükənmə sindoromu, müəllimin şəxsiyyət keyfiyyətləri, korrelyasiya, aksentuasiya

**Ключевые слова:** синдром эмоционального истощения, личностные характеристики учителя, корреляция, акцентуация

**Key words:** burnout syndrome, emotional exhaustion syndrome, personality characteristics of the teacher, correlation, accentuation

Tədqiqatda aparılmış təhlillər əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1. Tədqiqatlar tükənmişlik sindromunun meydana çıxma, yaranma səbəbi kimi daha çox idarəetmədə olan, əmək fəaliyyətinin düzgün təşkili ilə bağlı problemləri önə çəksə də şəxsiyyətin fərdi tipologiyası daha əhəmiyyətli faktorlardandır.

2. Tədqiqat nəticəsində müəyyənləşdirildi ki, tükənmə sindromuna məruz qalan müəllimlər arasında xarakterin aksentuasiyasına görə üç tip üstünlük təşkil edir: emotiv, demonstrativ və pedant tip.

3. Tükənmə sindromu həssaslıq səviyyəsinə (emotiv tip), səliqəlilik, dürüstlük, xeyirxahlığına (pedant tip), hər zaman birincilik əldə etmə, özünə qarşı yüksək tələbkarlığı ilə (demonstrativ tip) başqa insanlardan fərqlənən insanlarda daha çox diaqnozlaşdırılır.

4. Tükənmə sindromu özünə tələbkarlığı ifrat şəkildə ifadə olunan (pedant tipinin xarekteristikasına müvafiq), hər bir işdə birincilik əldə etməyə cəhd edən, mükəmməlliyyətçi (demonstrativ tipinin xarekteristikasına müvafiq), həssaslıq və empatiya hissinin duyulmasında ifrat kənaraçıxmaları olan (emotiv tipinin xarekteristikasına müvafiq) şəxslərdə diaqnozlaşdırılır.

5. Pearson K=(-0,337$^{**}$), P=0,004, Kendall`s tau K=(-0,328$^{**}$), P=0,001, Spearmen K=(-0,376$^{**}$), P=0,001 səviyyəsində emosional yorğunluq və xarakterin aksentuasiyası arasında mənfi dərəcəli zəif korrelyasiya mövcuddur. Bu o deməkdir ki, emosional yorğunluq artıqca xarakterin aksentuasiyasında azalma müşahidə olunur. Eyni ilə əksinə emosional yorğunluq azaldıqca isə aksentuasiyanın təsir gücü daha çox hiss olunur.

6. Müəyyən edilmişdir ki, tükənmə sindromu olan müəllimlərin – həyəcan səviyyəsi yüksəkdir, y*əni* tükənmə sindromu *ilə* həyəcan arasında düz mütənasiblik vardır. Asılılıq yüksək olduqca həyəcan və həyəcanın varlığını təsdiq edən əlamətlər (yuxusuzluq, stress, əsəbilik, qorxu, panik və səbəbsiz narahatçılıq) daha intensiv və güclü formada müşahidə edilir. Belə ki, rəyi soruşulan 70 nəfər müəllimin 44 nəfərində reaktiv təşviş-həyəcan, 23 nəfərində şəxsi təşviş-həyəcan, 3 nəfərində həm RT, həm ŞT səviyyəsi yüksəkdir (şəkil 1).




Şəkil 1. Tükənmə sindromuna məruz qalmış müəllimlərin həyəcanlılıq göstəriciləri

7. Alınan nəticələr əsasında müəyyənləşdirildi ki, hər üç korrelyasiya testinə əsasən emosional yorğunluq və şəxsiyyət tipləri arasında mənfi dərəcəli orta korrelyasiya mövcuddur.

8. Spearmen testinə əsasən alınan nəticələr əsasında məlum olmuşdur ki, emosional yorğunluq və şəxsiyyət tiplərinin bir neçəsi arasında, eyni zamanda şəxsiyyət tiplərinin özlərinin də ayrı-ayrılıqda bir neçəsi arasında korrelyasiya əlaqəsi vardır (Cədvəl 1)

Cədvəl 1. Emosional yorğunluq və şəxsiyyət tipləri arasında korrelyasiya əlaqəsi.

| Spearmen | | Emosional yorğunluq | Eqoistik tip | Aqressiv tip | Altruist tip |
|---|---|---|---|---|---|
| Emosional yorğunluq | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | 1.000<br><br>70 | .369**<br>.002<br>70 | .307**<br>.010<br>70 | -.452**<br>.000<br>70 |
| Avtoritar tip | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-70 |
| Eqoistik tip | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | .369**<br>.002<br>70 | 1.000<br>.<br>70 | -.092**<br>.447<br>70 | -.589**<br>.000<br>70 |
| Aqressiv tip | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | .307**<br>.010<br>70 | -.092**<br>.447<br>70 | 1.000<br>.<br>70 | .490**<br>.000<br>70 |
| Paranoyal tip | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 |
| Tabe olan tip | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 |
| Asılı tip | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Sülhsevər tip | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 | -<br>-<br>70 |
| Altruist tip | Korrely. əmsalı<br>Əhəmiyyətlilik<br>Say | -.452**<br>.000<br>70 | -.589**<br>.000<br>70 | .490**<br>.000<br>70 | 1.000<br>.<br>70 |

**. Korrelyasiya 0.01 səviyyəsində əhəmiyyətlidir (2 ulduzlu)

9. Emosional yorğunluq ilə eqoist və aqressiv şəxsiyyət tipi arasında zəif korrelyasiya, altruist tip arasında isə orta dərəcəli korrelyasiya əlaqəsi vardır. Bu o deməkdir ki, eqoist və aqressiv tiplər də digər tiplərdən fərqli olaraq daha çox emosional yorğunluğa meyilli olur. Eyni zamanda altruist tiplər digərlərindən əlavə bu iki tipə nisbətən, emosional tükənməyə daha tez məruz qalırlar.

10. Eqoist şəxsiyyət tipi ilə altruist şəxsiyyət tipi arasında mənfi dərəcəli orta korrelyasiya əlaqəsi mövcuddur. Bu o deməkdir ki, altruizm azaldıqca eqoistlik artacaq və ya əksinə eqoistlik artdıqca altruizm azalacaq.

11. Aqressiv tip şəxsiyyət ilə altruist tip şəxsiyyət arasında orta dərəcəli korrelyasiya mövcuddur. Bu isə o deməkdir ki, altruist tiplərdə zamanla aqressiya səviyyəsi yüksələrək aqressiv şəxsiyyət tipinə çevrilmə ehtimalı daha çoxdur.

**Məqalənin aktuallığı.** Son illərdə emosional tükənmə sindromunun tədqiqinə maraq xeyli artmışdır. İndiki dövrdə iş yükünün, problemlərin və stresslərin çoxluğunu nəzərə alsaq, məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müəllimin şəxsiyyət keyfiyyətləri ilə tükənmə sindromunun qarşılıqlı əlaqəsinin təhlili verilir, tükənmə və xarakter aksentuasiyası arasındakı korrelyasiya göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Maslach C. A. Multidimentional Theory of Burnout //Theories of Organizational Stress, Oxford, 1994.

2. Maslach C., Leiter M. The Truth About Burnout. San Francisco, 1997.

**А. Баширова**

## Анализ взаимосвязи личности и синдрома истощения учителя (результаты исследований)

## Резюме

В статье анализируется взаимосвязь между личностными характеристиками учителя и синдромом истощения, а также корреляцией между истощением и акцентуацией характера.

**A. Bashirova**

## Analysis of the relationship between personality and exhaustion syndrome of the teacher (research results)

## Summary

The article analyzes the relationship between the personality characteristics of the teacher and exhaustion syndrome, and correlation between exhaustion and character accentuation.

**Redaksiyaya daxil olub:** 14.06.2019